UOT 82
https://doi.org/10.59849/2311-8482.2025.4.46

RUHƏNGİZ ƏLİYEVA

# XALQ DANIŞIQ DİLİNİN POEZİYADA ƏKSİ VƏ "BEŞ HECECİLER"

*Məqalədə XX əsr türk ədəbiyyatında milli ədəbiyyat dövrü ərzində "Gənc qələmlər" birliyinin təsis etdiyi qayda və qanunların təsiri ilə yaranmış "Beş Hececiler" ədəbi qrupu haqqında söhbət açılır.*

***Açar sözlər:*** *heca vəzni, əruz vəzni, milli ədəbiyyat, poeziya*

**Giriş**

XIX əsrin sonu XX əsrin əvvəlləri türk ədəbi-mədəni mühitində yeni bir inkişaf mərhələsidir. Türk ədəbiyyatında bu dövr müxtəlif fikir cərəyanlarının, təmayüllərin, məktəblərin bir-birini gah əvəz etdiyi, gah da üstələdiyi bir dövrdür.

**Tədqiqat**

"Beş hecacılar" adı ilə məşhur olan ədəbi qrup nümayəndələri həm xalq danışıq dilinin, həm də milli vəzn olan heca vəzninin əsasən poeziyada tərənnüm olunması tərəfdarı idilər. Bu qrup şairlər Milli ədəbiyyat dövründə fəaliyyətə başladılar və onların şeirlərində dilin sadəliyi, səmimi hisslərin təcəssümü, milli kimlik hissləri, ərəb və fars sözlərindən daha az istifadə olunması ilkin olaraq diqqəti cəlb edən cəhətlərdəndir.

Ümumiyyətlə, Milli ədəbiyyat dövrü türk ədəbiyyatının mühüm sahəsini, önəmli bir qolunu təşkil etməkdədir, təbii ki, bu zamana qədər də mühüm bir inkişaf yolu qət etmişdir.

"Beş hececiler" adı altında bir araya gələn şairlər F.N. Çamlıbel (1898-1973), O.S. Orhon (1890-1972), Y.Z. Ortac (1895- 1967), E.B. Koryürek (1891-1949) və H.F. Ozansoy (1891-1970) idilər. Görkəmli ədəbi simalar özlərindən əvvəlki Sərvəti-Fünun və Fəcri-Ati dövrü şair və yazıçılarının poetik nümunələrindən bəhrələnmiş və sonra gələn nəslə güclü təsir etmişlər. Şairlərin hər biri öz ilk ədəbi axtarışlarında qələmə aldıqları nəzm örnəklərini ilk öncə əruz vəznində qələmə almışlar. Xalid Fəxri Ozansoy öz xatirələrində "Ziya Gökalpın açtığı Türkçülük bayrağı" deyə adlandırdığı bu müqəddəs amalın ətrafında sonradan hecacılar deyə isimləndirilənlərin bu işə necə yüksək yaradıcılıq ehtirası ilə yanaşmalarını dilə gətirir.

Güzel dil türkçe bize
Başka dil gece bize.
İstanbul konuşması
En saf, en ince bize. (119 s. )

Ümumiyyətlə, türk ədəbiyyatında bu dövrdə yaranan "Beş Hececiler" ədəbi topluluğu bir qisim tədqiqatcılar tərəfindən heç də yaxşı qarşılanmamış, bu qrupun ümumiyyətlə bu cür adlandırılması doğru hesab olunmamışdır. Məsələn, professor İsmayıl Çetişli belə söyləyir: "Dönemin şairleri için zaman Beş Hececiler ve ya on hececiler gibi qruplandırmalar yapılsa da, bunun çok doğru olduğu söylenemez. Çünkü 1908-1923 döneminde – dikkate alınmayacak bir-iki deneme dışında - Cenap Şahabeddin, Süleyman Nazif, Mehmet Akif, Ahmet Haşım, Yahya Kemal"ın dışında kalan bütün şairler şiirlerini hece vezniyle yazarlar" (s.211. 7)

İlk olaraq Faruk Nafiz Çamlıbeldən (1898-1973) söhbət açmalıyıq, çünki məhz bu qüdrətli sənətkar sayəsində Milli ədəbiyyat dövrünün prinsip və ideyalarının poetik nümunələrdə əksini görürük. XX əsr türk ədəbiyyatında Milli ədəbiyyat dövrünün (1911-1923) formalaşma və inkişafı prosesində ünlü şair Faruk Nafiz Çamlıbelin əvəzsiz xidmətləri olmuş, onun istedadlı qələmiylə ərsəyə gəlmiş poetik nümunələr ümumilikdə türk ədəbi-bədii fikrinin inciləri cərgəsinə qoşulmuşdur.

Milli ədəbiyyat dövrünün və heca vəzninin klassiki zirvəsinə yüksələn qüdrətli sənətkarın poetik irsi ilə tanış olduqca bir çox ədəbiyyatşünasların söylədiyi fikri təsdiqləyirik ki, həqiqətən də sözügedən dövrü Faruk Nafiz Çamlıbel poeziyası olmadan təsəvvür etmək qeyri-mümkündür. O, yaradıcılığında öz dəst-xəttinin, üslubunun olması, özünəməxsus şeir dilinin üstünlükləri ilə digər şairlərdən fərqlənmişdir. Onun "Sənət" adlı şeiri sanki Milli ədəbiyyat dövrünün bəyannaməsi hesab edilir:

Yalnız senin gezdiğin bahçede açmaz çiçek,
Bizim diyarımız da binbir baharı saklar!
Kolumuzdan tutarak sen istersen bizi çek,
İncinir düz caddede dağda gezen ayaklar.

Altı misradan ibarət olan bu mənzumədə Avropa adət-ənənəsini, dəyərlərini üstün tutan, öz dilinə və xalqına xor baxan bir "türk"lə, saf bir Anadolu insanının həyat tərzini, yaşayışını qarşılaşdıran şair, yaşadığı dövrün tələblərini, ab-havasını ifadə edir, mənəvi-əxlaqi dəyərlərin qorunması kimi müqəddəs hisslərin aşılanmasına diqqəti yönəldir.

Ünlü şair Orxan Seyfi Orhon (1890-1972) XX əsr türk ədəbiyyatına fərdi üslubuyla, dəsti-xəttiylə öz möhürünü vurmuş, ana dilinə sevgisi, bağlılığı ilə zəmanəsində həmkarları sırasında fərqlənmişdir.

Orxan Seyfi Orhonun yaradıcılığında müraciət etdiyi mövzuları nəzərdən keçirdikdə, erkən dövrdə daha çox iki sahədə - romantik sevgi, qadına münasibət və s. ("Gözlerde seyahat", "Peri kızıyla çoban hikayesi", "Annemle hasbihal", "Sevgiliye mektup", "Yolculuk") mövzular üstünlük təşkil edir. Digər sahədə isə daha çox müxtəlif mövzular ("Anadolu Toprağı", "Harb içinde bahar", "İlk bahar Türküsü", "Kalender Türküsü", "Ben", "Kanarya", "Bir çiftlik manzarası", "Fantezi – 1") daha çox üstünlük təşkil edir.

Yaradıcılığa başladığı dövr əruz vəzninin müəyyən qədər yenə də ədəbiyyatda hakim şeir vəzni olduğundan, o da ilk nəzm nümunələrini məhz bu vəzndə qələmə almışdır. İlk şeir kitabı "Fırtına ve Kar"da (1916) bütün nümunələr əruz vəznindədir. Lakin sonradan digər həmkarları kimi Ziya Göyalpın türkçülük cərəyanının təsirilə milli vəzn olaraq dəyərləndirilən heca vəznində yazmağa başlamışdır. Onun "Anadolu toprağı" adlı şeirində Anadolunun savaş illərində ağır günləri, şərəfli tarixi, azadlıq mübarizəsi tərənnüm edilir:

Senelerce sana hasret taşıyan,
Bir gönülle kollarına atılsam.
Ben de bir gün kucağında yaşayan,
Bahtiyarlar arasına katılsam. (s 37, 12)

–deyən şair, bu illərdə Anadoluda cərəyan edən hadisələrə biganə qala bilmir, ürəyi onlarla bir döyünən cəsur insanların adından gələcəyə böyük inam və ruh yüksəkliyi tərənnüm edilir. Burada lirik qəhrəman axtardığı milli-mənəvi dəyəri, milli qürur hissini bu müqəddəs torpaqlarda tapdığını sevinclə qeyd edir.

Əsərlərini ilk öncə Sərvəti-Fünun məktəbinin diktəsi ilə yazanlardan biri də Xalid Fəxri Ozansoydur. O, ilk şöhrətini əruz vəznində yazmış olduğu "Baykuş" (1916) adlı mənzum pyesi ilə qazanmışdır. Xalid Fəxri öz xatirələrində qeyd edir ki, Süleyman Nazif onun "Baykuş" isimli əruzla yazılmış pyesindən sonra ona "İşte istikbalin Tevfik Fikreti" deyə adlandırmışdır. Onun heca vəzni ilə qələmə aldığı "Vatan Destanı" adlı şeiri xüsusi diqqət çəkir:

O kadar dolu ki toprağın şanla,
Bir değil, sanki bin vatan gibisin.
Yüce dağlarına çöken dumanla
Göklerde yazılı destan gibisin.

Enis Behiç Koryürek (1891-1949) Sərvəti-Fünun ədəbiyyatı təsirilə yaradıcılığa başlasa da, bir şair kimliyini, şəxsiyyətini Ziya Göyalpın təsirilə heca vəzni ilə yazdığı nəzm örnəklərilə sözünü demişdir:

Şirimi yükselten aşkınsa senin,
Ben seni şiirimde yükselte bilsem.
İstemem, ilhamın bana gelmesin,
Sana layık olan şair değilsem. (s138, 9)

Türk ədəbiyyatı tarixində hecaçılardan biri kimi tanınan daha bir şair Yusif Ziya Ortaç yaradıcılığının ilkin mərhələsində daha çox Milli ədəbiyyat dövründə özünün diqqət çəkən heca vəznində nəzm örnəkləri yazmasıyla məşhurlaşdı. Ədəbiyyatşünaslar onun ədəbi aləmdə daha məhsuldar dövrünü Birinci Dünya müharibəsi illərini hesab edirlər. Yaradıcılığının ilkin mərhələsini təşkil edən bu dövr müddətində onun ilk şeir kitabları "Akından Akına" (1916), "Cenk ufukları"

(1917) və üç pərdəlik mənzum pyesi olan "Binnaz" (1917) bu illərdə çap olunmuşdur. Yaradıcılığının ilk illərində Sərvəti-Fünun və Fəcri-Ati məktəblərinin təsiri ilə əruz vəznində yazmağa üstünlük vermişdir. "Çok geçmeden ve henüz daha yolun başında iken Ziya Gökalp ile tanışınca büyük ölçüde onun tesirinde kaldı. Gerek dil, gerek vezin, gerekse muhteva bakımından Milli Edebiyat şiirine bağlandı ve hayatının sonuna kadar da bu baglılığını sürdürdü." ( s. 298. 7)

İlk şeirlərindən başlayaraq 1923-cü ilə qədər yazdığı şeirlərdə əsas mövzular eşq, qadın, vətənpərvərlik, millət, ölüm və digər bu kimi mövzular işləmişdir. Bu dövrdə bir-birinin ardınca baş verən müharibələr – Trablis, Balkan, I Dünya müharibəsində Almaniya tərəfindən savaşa sürüklənməsi, Çanaqqala, İzmirin işğalı kimi hadisələr ədəbi məkan nümayəndələrini də narahat etmişdir. Yusif Ziya vətənin bu böhranlı çağında öz qələmiylə:

Ey şair uğraşma kendi derdinle,
Milletin ağlayan kalbini dinle...

– deyərək öz həmkarlarını fikir birliyinə çağırır, vətənin müdafiəsi yolunda qələmə sarılmağa səsləyir.

Nihat Sami Banarlı onu "yeni edebiyatın kuvvetli ümidi" adlandırmaqda heç də əsassız deyildi, heca vəzni ilə təmiz, saf türkcə ilə yazdığı poetik nümunələri həmin dövr üçün, yəni milli ədəbiyyat dövrünün prinsip və ideyalarını özündə əks etdirirdi. Bu nümunələr həmin dövr üçün çox müasir səslənirdi.

**Nəticə**

1. "Beş Hececiler" ədəbi qrupu Milli ədəbiyyatla Cümhuriyyət dövrü arasında olan bir zamanı əhatə edir.
2. Şairlər milli ədəbiyyat cərəyanı özəlliklərindən təsirlənərək heca vəzni ilə yazmağa üstünlük vermişlər.
3. Sadə və təmiz bir dil ilə şeirlərini qələmə almışlar.
4. Hər biri ilk öncə əruz vəznində yazmış, daha sonra heca vəzninə keçmişlər.
5. Şeirlərində əsasən məmləkət gözəllikləri, yurd sevgisi, Anadolu insanının güzəranı və s. bu kimi mövzulara daha çox müraciət etmişlər.

## ƏDƏBİYYAT


1. Aktaş Ş. Milli Edebiyat Dönemi (1911-1923). Türk Edebiyatı Tarihi. III cilt, İstanbul, 2006, 462 s.
2. Banarlı N.S. Resimli Türk Edebiyatı. II cilt, İstanbul, 1274 s.
3. Birinci N. Edebiyat üzerine incelemeler. İstanbul, Kitabevi, 2000 s.
4. Birinci N. Faruk Nafiz Çamlıbelin şiiri üzerine bir deneme. II. Türk dili. Aylık dil dergisi, 1992, nişan, sayı 484.
5. Çamlıbel F.N. Han duvarları. Ankara, Başbakanlık Basımevi, 1983, 162 s.
6. Çinarlı M. Enis Behiç Koryürek ve ruhlar alemi. Türk Dili. Aylık dil dergisi. Sayı 502, ekim 1993.
7. Çetişli İ. Yeni türk edebiyatı metin tahlillerine giriş. 2000.
8. Kayahan Özgül M. H. F. Ozansoy. Ankara. 1986.
9. Kolcu H. Türk edebiyatında hece-aruz tartışmaları. Ankara. 1993.
10. Koryürek E. B. Hayatı ve eserleri. Ankara, Aslımla Matbaası, 1985, 184 s.
11. Tanzimattan gnümüze kadar türk şiiri. Düzenleyen: Rauf Mutluay. Milliyet yayınları, 1973, 568 s.
12. Tevetoğlu F. E. B. Koryürek. Hayatı ve eserleri. Ankara. 1985.
13. Orhon S.O. Kervan. İstanbul. Akbaba matbaası. 1964.
14. Ziya Gökalp külliyatı – 1.Şiirler ve halk masalları. Tenkidli basım.
15. Ankara. 1952. Türk tarih kurumu basımevi, 398.


***AMEA Akademik Z. Bünyadov adına**
***Şərqşünaslıq İnstitutu***
***E-mail: ruxa.aliyeva.1978@gmail.com***

**Ruhangiz Aliyeva**

**THE REFLECTION OF FOLK SPOKEN LANGUAGE IN POETRY
AND THE FIVE SYLLABIC POETS**

The article discusses the literary group "Beş Hececiler," which emerged during the National Literature period in 20th century Turkish literature under the influence of the rules and principles established by the "Young Pens" association.

**Key words:** *syllabic meter, aruz meter, national literature, poetry*

**Рухангиз Алиева**

**ОТРАЖЕНИЕ НАРОДНОГО ЯЗЫКА В ПОЭЗИИ
И ПЯТЬ СИЛЛАБНЫХ ПОЭТОВ**

В статье рассматривается литературная группа «Беш Хеджеджилер», возникшая в период национальной литературы в турецкой литературе XX века под влиянием правил и принципов, установленных объединением «Молодые перья».

**Ключевые слова:** *силлабический метр, аруз-метр, национальная литература, поэзия*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 17.10.2025**

**Son daxilolma tarixi:23.11.2025**